Sahibə Sədnik qızı Paşayeva47

# FOLKLORDA DÖYÜŞ ƏNƏNƏLƏRI

Azərbaycan folkloru Azərbaycan türklərinin şifahi xalq yaradıcılığıdır. Nəzm və nəsrlə ipə çəkilmiş bu nümunələrdə ilahi eşq, anaya, qadına olan sevgi hissləri̇lə yanaşı, bir mübarizə ruhu da mövcuddur. Məqalədə Azərbaycan folklorunda döyüş ənənələrindən söhbət açılmışdır. Burada qeyd olunmuşdur ki, xalqın sosial-ictimai həyat tərzi, haqq-ədalət uğrunda apardığı mübarizə folklorda döyüş səhnələrinin təsvirində öz əksini tapmış, bir çox qəhrəmanlıq rəvayətləri, bahadırlıq dastanları, cəngavər döyüşləri haqqında müxtəlif məlumat və motivlər, döyüş növləri və silahlar haqqında məlumatların təqdimedilmə yolları və üsulları folklor janrlarında müxtəlif formalarda verilmişdir.

Folklor hər bir xalqın milli yaddaşıdır. Tədqiqatçı-alim, filologiya elmləri doktoru Seyfəddin Rzasoyun sözləri ilə desək, "Xalqın varlığı söz və sənət kodları ilə onun yaddaşında inikas olunur... Milli yaddaşda millətin tarixi bütöv xalqın taleyindən keçdiyi kimi, hər bir fərdin taleyindən də keçib gələcəyə gedir... Folklor xalqın taleyidir: hər bir etnosun taleyi onun milli yaddaşa nə dərəcədə bağlılığından asılıdır. Yaddaşına qayıda bilən xalq onu millətlər içində millət edən zirvəyə qalxa bilir..." [19]

Folklor şifahi ənənədə mövcud olan bilikdir. Etnosun hər cür fiziki və mənəvi təcrübəsi folklorda şifahi ənənə vasitəsi ilə reallaşan elmi biliklərdir. Adət-ənənələr, düşüncə tərzi, əxlaq və davranışları və milli mədənyyətin izlərini bu böyük salnamənin səhifələrində görmək mümkündür. Xalqın arzu və istəkləri, həqiqət və ədalət axtarışları, mübarizə tarixi folklorda öz əksini tapmışdır.

Azərbaycan xalqının folkloru ötən günlərin milli xəzinəsi, gələcək üçün qorunub saxlanan örnək kitabıdır. Bu kitabın səhifələrndə nələr yoxdur ki? Onu vərəqlədikcə Dədə-Qorqud boylarından Dədə Qorqudun "Qor-qud, xor-xut" deyə səslənən sazı, Oğuz igidlərinin hay-harayı, Çənlibeldən Koroğlu və onun dəlilərinin qılınclarının cingiltisi, Qıratın və Düratın dağları-daşları lərzəyə gətirən kişnərtiləri eşidilir, sazını sinəsinə basıb öz Əslisini axtaran və onun eşqinin odunda yanan-qovrulan Kərəm, Arzusunu axtaran Qəmbər, Qəndabın həsrətinə son qoymaq üçün dərin dəryalara baş vuran Novruz zaman-zaman tarixin tozlu və qaranlıq divarları arxasından qalxaraq bizə baxır. Xalqın dilindən qopan nəğmələr, dastanlar, həyat təcrübəsindən yaranan atalar sözləri, bayatılar, tapmacalar, yanıltmaclar, yaşayışından, məişətindən, dövrünün ictimai-siyasi, mədəni və siyasətindən doğan, dini inanclarını əks etdirən əfsanə və rəvayətlər, nikbin ruhunu açan lətifələr də milli folklorumuzun qiymətli sərvətləridir. "Türk dünyasının dərin qatlarından süzülüb gələn ozan-aşıq sənəti tarixin müxtəlif keçidlərində enişli-yoxuşlu yollardan keçə-keçə Qorqud atanın əzəmətində ozanı yaşatmış, orta əsrlərdən isə Kərəmin, Sarı Aşığın, Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın, nəhayət, Aşıq Ələsgərin simasında həmin zirvəni yaratmışdır." [8, s.4]

Azərbaycan folkloru Azərbaycan türklərinin xalq yaradıcılığıdır. Nəzm və nəsrlə ipə çəkilmiş bu nümunələrdə ilahi eşq, anaya, qadına olan sevgi hissləri̇lə yanaşı, bir mübarizə ruhu da mövcuddur. Bu mübarizə vətən uğurunda aparıldıqda daha da güclənir. Azərbaycan folkloru eyni zamanda hərb sənətimizin tarixi güsgüsüdür.

Dünyanın hərb səhnəsində bir çox xalqlar iştirak etmişlər və hərb tarixi, hərb sənəti kimi indi də vərəqlənməkdə, inkişaf etməkdə olan böyük bir salnamə qoyub getmişlər. Azərbaycan hərb sənətinin tarixi də çox qədimdir. Qədim və mürəkkəb, keşməkeşli tarixə malik Azərbaycan xalqı əsrlər, minilliklər boyu öz azadlığı və dövlətçiliyi uğrunda mübarizə aparmışdır. Belə ki, "Albaniya dövlətini idarə edən Mehranilər sülaləsinin nümayəndəsi Cavanşir həm də sərkərdəlik bacarığı ilə seçilirdi. 816-837-ci illər arasında məşhur sərkərdəmiz Babək ərəb işğalçılarının 6 ordusunu darmadağın etmişdi. Bu qələbələr bir sərkərdə kimi məhz onun həyata keçirdiyi strategiya nəticəsində əldə olunmuşdu. Erkən orta əsrlərdə Şəmsəddin Eldəniz, onun oğlu Məhəmməd Cahan Pəhləvan, Qara Yusif, Uzun Həsən kimi hökmdar və sərkərdələrimiz də qələbə çaldıqları döyüşləri həyata keçirdikləri xüsusi taktikalar vasitəsilə əldə etmişdilər. Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai 14 il ərzində az qüvvə ilə 14 vilayəti özünə tabe etməyə nail olmuşdu." [16] Əliağa Şıxlinski, Qalib bəy Vəkilov, Cahangir xan Xoyski, Cəfərqulu ağa Bakıxanov, Cəmşid Naxçıvanski, Səməd bəy Naxçıvanski kimi bir çox generallarımız Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymışlar.

İkinci Dünya müharibəsi cəbhələrində Həzi Aslanov, Mehdi Hüseynzadə, Ziya Bünyadov, İsrafil Məmmədov, Gəray Əsədov, Məlik Məhərrəmov və başqa qəhrəman oğullar şücaət və mərdlik göstərirdilər. Onların qəhrəmanlığı sayəsində Azərbaycanın şanlı hərb tarixi ənənələri uğurla davam etdirilmişdir.

Azərbaycan xalqı özünün çoxəsrlik bədii təcrübəsində yaratdığı əsatirlər, miflər, rəvayətlər, nağıllar, dastanlar və digər şifahi xalq ədəbiyyatı nümunələrində əsrlərdən bəri süzülüb gələn hərb sənətimizin gözəl nümunələrini toplamış, yaddaşlarda yaşayan igid oğul və qızların əzəmətli bədii obrazlarını yaratmışlar. Xalq vətənin mərd oğullarını düşməndən intiqam almağa çağırmışdır. Bu çağırışlar bayatılarımıza dərin ictimai-əxlaqi məna aşılamışdır:

El batır qəm dəryada,
Kimə gedim mən dada?
İgid döyüşdə ölsə,
Adı qalar dünyada.

****

İgid gərək atlana,
Atın minə atlana.
Mərd odur ki, döyüşdə
Hər yaraya qatlana. [1, s.24]

Azərbaycan folklorunda göstərilir ki, vətənin gücü elin, xalqın gücündədir. Xalqın qüdrəti isə birlikdədir. Vətən torpağına yadların ayağı dəyməməlidir. Onların qarşısını almaq vətənin mərd oğullarının borcudur.

---

47 AMEA Folklor İnstitutunun böyük elmi işçi. psahiba@mail.ru

"Məlumdur ki, hər bir xalqın vətəninin taleyini düşünən, azadlığı və gələcək xoşbəxtliiyi uğrunda mübarizə aparan epos qəhrəmanları olur. Bu qəhrəmanların bəşəri arzuları zamana görə dəyişir, bir-birindən fərqli bənzərsiz şəkildə eposlarda öz bədii əksini tapır. Məsələn, şumerlərin "Bilqamıs" dastanının qəhrəmanı Bilqamısın arzusu elə bir ot axtarıb tapmaqdır ki, onun xalqı həmişə cavan qalsın, əbədi həyat sürsün, ölümsüz yaşasın." [10, s.13] Əcdadlarımızın göstərdiyi qəhrəmanlıq və şücaətlər el ədəbiyyatında silinməz izlər buraxmışdır. Azərbaycan folklorunda xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, insanların haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. Bu dastanların qəhrəmanları xalq içərisindən çıxmış igidlər olmuşdur. Bu materiallarda əfsanəvi döyüşçülərdən, qorxmaz gənc şahzadələrdən başlamış Astiaq, Tomiris, Cavanşir kimi real xalq igidlərinə qədər cəsur insanlar haqqında zəngin materiallar toplanmışdır. Azərbaycan folklorunda döyüş motivləri və onların təqdim edilmə yolları çox müxtəlif olmuşdur. Bir çox qəhrəmanlıq rəvayətləri, bahadırlıq dastanları, cəngavər döyüşləri, döyüş növləri və silahlar haqqında məlumatlar folklor janrlarında öz əksini tapmışdır.

"Məlikməmməd", "Simanın nağılı", "Uşaq pəhləvan", "İbrahim", "İsgəndər pəhləvan", "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi bir çox folklor nümunələrinin qəhrəmanları xalq içərisindən çıxmış igid oğullardır. "Hər bir xalq öz içərisindən çıxmış qəhrəmanını, öz övladını əfsanələşdirməyə çalışmış, ... ona əsatiri qüdrət vermişdir." [9, s.18]

Məlikməmməd, Məlik Əhməd, Qazan xan, Dəli Domrul, Basat, Qaraca Çoban, Koroğlu, Eyvaz, Dəmirçioğlu, Halaypozan kimi igidlərin qəhrəmanlıq və rəşadətindən, Vətənə məhəbbət hissindən bütün el-oba danışmışdır. XVII əsrdə Koroğlu qoşmaları aşıq poeziyamıza döyüşkənlik, mübarizlik ruhu gətirmiş, onu dağ çeşmələrinin suyu kimi durultmuş, ümumiyyətcə, aşıq poeziyamızda qəhrəmanlıq motivlərini gücləndirmişdir. Telli saz Misri qılıncla bərabər Koroğluya kömək etmiş, onunla döyüş meydanlarına getmiş, öz coşqun sədası ilə qəhrəmanları vəcdə gətirmişdir.

Məndən salam olsun əcəm oğluna,
Meydana girəndə, meydan mənimdir.
Qıratım köhləndi, özüm qəhrəman,
Çalıram qılıncı, düşmən mənimdir. [5, s.176]

Koroğlunun ilk döyüş nəğməsi olan bu misralarda "qəhrəmanın daxili aləmi, arzusu, həyəcanı məharətlə ifadə olunmuşdur. Bu, həm də ağır döyüşlərə hazırlaşan, düşmənlə ölüm-dirim mübarzəsinə atılan cəsur bir qəhrəmanın həyat amalıdır." [9, s.75] Qəhrəmanlığın tərənnümü motivinə böyük maraq göstərən türkdilli xalqlar Koroğlu rəvayətlərini özlərinə məxsus bir sənətkarlıqla yenidən işlərkən onu öz yaradıcılıq ənənəsi və milli koloritlə cilalamış, öz milli ədəbi nümunəsi kimi işləyib onun müxtəlif variantlarını yaratmışlar.

"Mənəvi və fiziki güc və onun nümayişi qəhrəmanlıq, təbiətin və cəmiyyətin, fərdin yaşam qanunudur. Odur ki, etnosu yaratmış bənzərsiz mənəvi, iradi və fiziki güc simvolu əcdad atanın timsalında milli sərvət, ləyaqət, qürur və başqa hiss və dəyərlərin qorunması müqəddəsliyi dastan vasitəsi ilə ardıcıllıqla yeni nəsillərə təqdim olunur. Bu səbəbdən də etnoqonik dastanlar heç zaman məzmun dəyişikliyinə məruz qalmadan zaman-zaman yaşayır. Çünki bütün zamanlar üçün yaşam qanunu olan qəhrəmanlıq ən yüksək formada, psixoloji təlqin formasında ifadə olunmuşdur." [4, s.118]

Böyük Çöldə yaşayan, Avropa və Asiyanın ərazilərini özlərinə vətən seçən türk xalqları kimi, Qafqazlarda yaşayan Azərbaycan türklərinin folkloru da döyüş səhnələri, silah növləri haqqında məlumatlarla zəngindir. "Qədim türklərin döyüş sənətinin ən sürətli formalaşma dövrü bozqır həyat tərzinə keçdikdən sonra baş vermişdir. Ancaq bu o demək deyildir ki, Türklər Ön Asiyada döyüş mədəniyyətinə sahib olmamışdır. Türk döyüş sənəti hələ, qədim türklər Ön Asiyada olarkən mövcud olmuşdur... Savaş mədəniyyəti bu etnosun həyat tərzinə daha qədimdən süzülüb gəlmiş, sadəcə bozqır çöllərində məcburiyyətdən bu savaş mədəniyyəti daha çox inkişaf dövrünü yaşamışdır. Orhun abidəsindəki Bilgə Tonyukukun yazısı, bu məcburiyyəti təsdiq edir: "Çuğay Kuzda, Qara qumda, məskən salmışdıq. Maral yeyərək, dövşan yeyərək otururduq. Xalqın boğazı tox idi. Ətrafdakı düşmənlərimiz yırtıcı quş tək, biz isə ov kimi idik." [14] Döyüşçü həyat tərzi yaşayan bu xalqların zəngin döyüş mədənyyəti olmuşdur. Bunu ağızdan-ağıza keçərək yaşayan hər bir nağılda, nəğmədə, dastanda və bir çox digər folklor nümunələrində görmək olar. Bu yaradıcılıq növlərini nəzərdən keçirdikdə, müxtəlif döyüş sənəti növləri ilə tanış oluruq. Məsələn, əlbəyaxa döyüş sənəti göstərirdi ki, hər bir gənc hökmən pəhləvan, bahadır olmağı bacarmalı idi. Bu ona qarşısına çıxan çətinlikləri dəf etməkdə vacib idi. Əlbəyaxa döyüşlər zamanı fiziki gücdən, müxtəlif alət və vasitələrdən (ip, ərkan, dəyənək, şüvül, tir və d.), müxtəlif təyinatlı silahlardan (bıçaq, qılınc, cida, nizə, ox və d.) istifadə edilirdi. Məsələn, "Məlikməmməd" Azərbaycan xaıq nağılında əsərin qəhrəmanı Məlikməmməd bir bahadır və bacarıqlı əsgərdir. O, divlərlə döyüşdə qılıncların, baltaların, əmudların köməyilə istədiyinə nail olmadığında əlbəyaxa döyüşdə onlara qalib gəlir və qələbə çalır. Oxşar motiv Koroğlu dastanında daha geniş yayılmışdır. Koroğlu ilə Ərəb Reyhanın döyüşü dastanda belə təsvir olunur: "Dava başlandı, yetmiş yeddi fəndin hamısını işlətdilər. Amma heç biri o birinə qalib gələ bilmədi. Nə qılıncdan kar aşdı, nə nizədən iş çıxdı, nə əmuddan murad hasil oldu. Axırda Koroğlu qəzəblənib atdan düşdü. Paltarının ətəklərini belinı sancdı. Qollarını çırmadı. Meydanda gərdiş eləməyə başladı. Ərəb Reyhan da atdan düşdü. Küştü başlandı." [5, s.191]

"Bütün bunlar sübut edir ki, qədim dövrdə hərb savaş sənətinin təlim prosesində fiziki gücə hesablanmış texniki fənlər olmuş, bu təlim prosesi ordu daxilində müxtəlif sınaqlarla (yarışmalarla) müşahidə olunmuş, daha sonrakı dövrlərdə isə bu sınaqlar və ya döyüş sənəti metodikaları müxtəlif adlarla konsepsiya olunmuşdur. Hal-hazırda fəaliyyətdə olan köklü döyüş sənətlərinin qədim dövrlərdə hərb savaş sənətinin tərkib hissəsi olması heç kimə sirr deyil." [14]

Əcdadlarımızın istifadə etdiyi müxtəlif silah növləri haqqında məlumatları şihahi xalq ədəbiyyatı nümunələrimizdən əldə etmək mümkündür. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanından aydın olur ki, öküz dərisindən beşik örtüyü və bəzi silahların (sapand, yay) hissələri kimi istifadə olunmuşdur. "Basatın yayı təkə buynuzundandır. Silahlar içində ox-yay, nizə və qılınc xüsusi yer tutur. Lakin nizələrin ən tipiki yoğun qamış gövdəsindəndir. Dəmir ucluqlu ox, polad qılınc o dövr üçün ən kəsərli, seçmə silah növləri kimi təqdim olunur" [13, s.16] "Kitabi-Dədə Qorqud" ən qədim qəhrəmanlıq dastanlarımızdan biri hesab olunur. ""Kitabi-Dədə Qorqud" dastanında Beyrəyin qəhrəmanlıq göstərməsi (14 yaşında) ona ad qoyulmasına səbəb olur. Eləcə də Buğac yetkinlik yaşında buğanı basdığına görə alqışlanır. "Kitabi-Dədə Qorqud" dastanında Dirsə xanın xatununun Buğacı axtarmaq üçün Qazlıq dağına qalxması və Buğacı orada tapması da bu motivlə eyniyyət təşkil edir." [18]

Yay-ox, sivri qılınc kimi silahların ilk dəfə qədim türklər tərəfindən istehsal edilməsi çox maraqlı faktdır. "Bizim eradan əvvəl II əsrə aid Çin qaynağına istinadən göstərilir: "Yay və ox işlətməkdə təcrübə və hünərləri çoxdur. Hər atdıqlarının hədəfə dəyəcəyinə əmindirlər... Hunlar at üstündə dördnala çaparkən belə,ox ata və yay çəkə bilirlər" Elə buradaca qeyd edək

ki, bu fikirlər "Kitab"dakı ("Kitabi-Dədə Qorqud") "Ağ yeləklü ötkün oxıŋ maŋa vergil//Ərdənərə keçirəyim səniŋ içün!" misralarının, eyni zamanda "Sağına-soluna eki qoşa yay çəkərdi" cümləsinin ümumi semantik yükü ilə səsləşir." [11, s.20] Türklər qılınclarına and içərdilər, əyilib qılınclarından öpərdülər. İnanırdılar ki, and pozulsa, qılınc sahibini kəsəcək. Məsələn, "Qılınc - qurşananın, at-minənindir", "Qılınc da öz qınını kəsməz", "Paslı dəmirdən qılınc olmaz", "Qılınc kəsməyəni çörək kəsər" kimi bir çox atalar sözləri və məsəllərdə qılıncın nə qədər qüdrəti olduğuna inam özünü hiss etdirirdi."Azərbaycan xalqının etnogenezində yaxından iştirak etmiş iskit və sarmatlar qılıncı savaş tanrısının simvolu hesab etmiş və ona tapınmışlar." [15]

Folklor nümunələrimizdə döyüşə gedən igidlərin geyimləri haqqında da məlumatlar vardır. Əsgərlər müharibəyə getdikdə əyinə kip oturan, topuğa qədər uzanan, darqollu köynək geyərdilər. Sinələrini oxdan və nizədən qorumaq məqsədi ilə köynəklərin üstündən dəri ilə çarpaz bağlanmış dairəvi, üstü bəzəkli dəmir asardılar. Bu, Azərbaycan əsgərinin, Türk döyüşçüsünün geyim mədəniyyətinin tarixini işıqlandırır. Məsələn, "Şah İsmayıl" dastanında belə bir epizodda döyüşə gedən orta əsr əsgərinin geyimi əks olunmuşdur:"Ərəbzəngi nərə səsinə oyandı. Polad paltarını geyindi, ayaqdan qıfıllandı, başdan geyindi, ayaqdan geyindi, başdan qıfıllandı. Şah İsmayıl meydanına gəldi..." [2, s.146]

Professor M.H.Təhmasib "Basatın Təpəgözü öldürdüyü boy"unu "mənşəyinə görə ən uzaq keçmişlə bağlı olanları əsatiri görüşlər, müxtəlif kultlar, bahadırlıq-nağılları, yaxud çox qədim əfsanə-rəvayətlərlə səsləşən dastanlardan" [12, s.113] hesab edir. "Basat-Təpəgöz" dastanımız bu gün də öz fəlsəfi və əxlaqi əhəmiyyətini saxlamaqdadır.

Nağıl qəhrəmanlarının aslan südü ilə bəslənməsi, onun aslanla bir yerdə böyüməsi xalqımızın şir ürəkli oğul böyütmək, hər cür çətinlikdən çıxa biləcək, döyüşlərdə qalib gələ biləcək igid tərbiyə etmək arzusundan irəli gəlirdi. Bu cəsur insanlar xeyir və şər uğrunda mübarizə aparır, hər cür çətinliklərə qatlaşır, sonda ölkələrinə qələbə ilə qayıdır, düşməni torpaqlarından uzaqlaşdırırdılar. Xalqın təfəkküründə yaratdığı bir çox sehirli qüvvələr bu işdə onlara yaxından köməklik göstərirdi. Məsələn, Zümrüd quşu, sehirli xalça, sehirli üzük, sehirli papaq və s. əsasən nağıl qəhrəmanına kömək edərək, onu dardan qurtarırdı. Bunlar insanların ayrılmaz silahı idi. Onlar divlər, əjdəhalar, küpəgirən qarıları məhz bu qüvvələrin vasitəsilə məhv edirdilər. ""Məlikməmməd" nağılında sehrli obrazlar sırasında sehrili almalar, zümrüd quşu, Yel atı, ağ qoç, qara qoç və s. vardır. Nağılda işıqlı və qaranlıq dünya təsvir edilmişdir. Məlikməmməd padşahın kiçik oğludur. Qardaşlarının xəyanəti nəticəsində zülmət dünyasına düşən qəhrəman Zümrüd quşunun köməyilə işıqlı dünyaya çıxır." [17]

Türk əsgərini onun ayrılmaz dostu at müşaiyət edirdi. At sədaqət rəmzi olduğu kimi, həm də müqəddəs hesab olunurdu. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında Beyrəyin atının kəsilib ehsan verilməsi, özünün isə atın dərisinə bükülməsi haqqında məlumatlar verilir. "Şah İsmayıl" dastanında qeyri-adi qəhrəman olan Şah İsmayılı Qəmərdaydan başqa heç bir at gəzdirə bilmirdi. "Koroğlu" dastanında da Koroğlu ilə Qıratın dostluğu dillər əzbəri idi. Koroğlu öz dostunu xilas etmək üçün hər cür təhlükəyə baxmayaraq həsrətlə:

Çənlibeldən səni deyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim Qırat gəl,
Dəmir libas, polad geyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim Qırat gəl. [5, s.186]

-deyərək, Toqata gedir və silahdaşını xilas edir.

Qaçaq Nəbinin, onun silahdaşı Həcər xanımın xilaskarı "Bozat" da dillər əzbəri olmuşdur. Qaçaq Nəbi də öz Bozatını yüksək qiymətləndirərək, onu cəldlikdə şirə, pələngə bənzətmişdir:

Bozat, səni sər tövlədə bağlaram,
And içirəm, səni məxmər çullaram!
Əyər məni bu davadan qurtarsan,
Qızıldan, gümüşdən səni nallaram! [6, s.168]

Atın tükü qoruyucu vasitə hesab edildiyindən ondan tuğ düzəldirdlər və çadırın, papağın, qəbirin üzərinə vururdular.

Koroğlu ənənələri "Qaçaq Nəbi" dastanında davam etdirilmişdir. Xalqın səadətini, istiqlaliyyət və müstəqillik uğrundakı qəhrəmanlıq ideyalarını nümayiş etdirən Koroğlu hayqıraraq:

Yağı düşmənin zərbəsi
Qaçırtmaz meydannan məni.
Qorxaq müxənnət zərbəsi
Qaçırtmaz meydannan məni.

****

Aləmə bəlli hünərim,
Çənlibeldə dəlilərim,
Mərd igidə peşkəş sərim
Qaçırtmaz meydannan məni. [5, s.101]

-deyə səslənirsə, Qaçaq Nəbi isə yoldaşlarına belə ürək-dirək verərək onları döyüşə çağırır:

Nəbi aynalını alar əlinə,
Hoy-hoy edib minər Boz at belinə,
Heç vaxt uymaz yağı düşmən felinə,
Mərd igiddi, dardan qurtarar Nəbi!
Düşmən üstə güllə yağdırar Nəbi!

****

Duman çökdü, bulud gəldi dağlara,
Külək vurdu, yağış yağdı bağlara,
Görünməyib Nəbi yada yalvara,
Mərd igiddi, dardan qurtarar Nəbi!
Düşmən üstə güllə yağdırar Nəbi! [6, s.68]

Bu dastan Azərbaycan xalq ədəbiyyatının yazılı ədəbi nümunəsi, qəhrəmanlığın bədii tarixidir. "Göründüyü kimi, qədim türklərin həyat tərzi olan savaş mədəniyyətində türkü əlbəyaxa döyüşsüz təsəvvür etmək mümkün deyil. Barmaqları ilə saf daşdan kəsik qoparan, güləş zamanı barmaqlarını qəniminin ətinə yeridib onu diz çökdürən, öküzü başı üstünə qaldıran və ya bir zərbə ilə öküzü yerə sərən şir biləkli bahadırlar haqqında söhbətlər xalq arasında geniş yayılmışdır. Həmin söhbətlərin arxasında türk savaş ənənələrinin müəyyən əlamətləri gizlənmişdir." [7, s.18]

Beləliklə, folklor tariximiz bizə əcdadlarımızın cəmiyyətdə baş verən hadisələrə biganə qalmadığından, xalqın tarixini, mənəviyyatını yaşatmasından xəbər verir. Filologiya elmləri doktoru, professor Füzuli Bayat qeyd edir ki, "Sözlü tarixin əsas materialı insandır. İnsanın həyatı, fəaliyyəti ilə bağlı hadisələr rəsmi tarixin sahəsini daha da genişlətməklə bərabər tarixə yön verənlərin, axarını dəyişənlərin sadəcə liderlər deyil, xalq icindən cıxmış sadə insanların, toplumun, bir sözlə, xalqın olduğunu vurğulayır, tarix bilincinin folklor bilinci ilə birləşməsini, eyniləşməsini saxlayır... Başlanğıcdan bu günə qədər tarix folklor materiallarında - əfsanələrdə, mənkabələrdə, dastanlarda, atalar sözlərində, bayatılarda və s. yaşadılımışdır." [3, s.79]

Xalq həyatının və məişətinin müxtəlif tərəfləri folklorumuzda hər janra məxsus bədii-emosional şəkildə əks olunmuşdur. Məsələn, qəhrəmanlıq nəğmələri, adətən, döyüş zamanı, yaxud döyüşdən əvvəl oxunaraq, döyüşçüləri səfərbərliyə, qorxmazlığa, igidliyə, cəngavərliyə çağırır. Əfsanələrdə, sehirli nağıllarda fantastik element və hadisələr iştirak edir.

Beləliklə, tarixin mifik qatlarından keçib gələn və qəhrəmanlıq epizodları ilə zəngin olan bir çox folklor nümunələrimiz yaddaşlara həkk olunmuş, el şənliklərində böyük şövqlə ifa edilərək nəsildən-nəsilə keçmiş, tarixin ən qədim yadigarı kimi günümüzə qədər gəlib çatmışdır.

ƏDƏBIYYAT

1.Azərbaycan bayatıları. Bakı: "XXI-Yeni Nəşrlər Evi", 2004, 304 s.
2.Azərbaycan dastanları. C.III. Bakl: Lider, 2005, 326 s.
3.Bayat F.H. Sözlü ənənədə yaşayan yaxın tarix // "Folklor və tariximiz" mövzusunda AMEA Folklor İnstitutu və AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutunun Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s.79-85.
4. Xəlilli X.D. Türk mənəviyyati tarixində "Oğuz xaqan" və "Kitabi-Dədə Qorqud" dastanları. Bakı: Elm və təhsil, 2015, 232 s.
5. Koroğlu: Dastan. Bakı: Lider nəşriyyatı, 2005, 552 s.
6. Qaçaq Nəbi: Dastan /Tərt. ed. Əhliman Axundov. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1961, 309 s.
7. Qıpçaq M.N., Əsgər Ə.D. Türk savaş sənəti. Bakı: Yazıçı, 1996, 176 s.
8. Namazov Q.M. Ozan-aşıq sənətinin tarixi. Bakı, Elm və təhsil, 2013, 480 s.
9. Nəbiyev A.M. Qəhrəmanlıq səhifələri. Bakı: Gənclik, 1975, 87 s.
10.Pirsultanlı S.P. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. C.I. Gəncə: "Pirsultan nəşriyyatı", 2002, 183 s.
11. Tanrıverdi Ə.V. Çal qılıncını, xan Qazan! ("DədəQorqud kitabı"nda silah adları). Bakı, Elm və təhsil, 2015,191 s
12.Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, s. 113 s.
13.Zeynalov F.R., Əlizadə S.Q. Tükənməz xəzinə: "Kitabi-Dədə Qorqud". Bakı: Yazıçı, 1988, 201 s.
14. Alpaqut Turan Döyüş Sənəti.-www.alpagut.az.
15.Qılınca and içmək gələnəyinin Qafqaz Albaniyasındakı izləri...-www. bextiyartuncay. wordpress.com
16. Azərbaycanın hərb tarixi-www.az.wikipedia.org
17. Nağıl-www. az.wikipedia.org
18. azərbaycan şifahi xalq ədəbiyyatı.-www.elibrary.bsu.az
19. Mifologiya və folklor.-www.elibrary.bsu.az

Açar sözlər: folklor, hərb savaş sənəti, döyüş növləri, silahlar
Ключевые слова: фольклор, военное искусство, боевые виды, оружие
Key words: folklore, the art of military struggle, the types of battles, arms.

Боевые традиции в фольклоре

Резюме

Азербайджанский фольклор-это устное народное творчество азербайджанских тюрков. В этих примерах поэзии и прозы присутствует дух борьбы, а также божественная любовь к матери и женщине. В статье приводятся события о боевых традициях в азербайджанском фольклоре и борьбе народа в социально - общественной жизни за справедливость, дается описание отдельных героических историй и боевых сцен, представления о типах боевого оружия, а также информация о тактике сражений и боевом искусстве.

Fighting traditions in folklore

Resume

Azerbaijani folklore is the oral creative activity of the Azerbaijani Turks. In the samples of prose and poetry of the folklore there is a spirit of struggle, together with divine love, love for a mother and a woman. The article deals with the fighting traditions in Azerbaijani folklore. It states that the social life style as well as the struggle of the people for their rights, take place in the fighting scenes in folklore. A number of heroic stories, epics, various kinds of motives on the battles of the nights, the types of battles and arms were presented in different ways in the genres of folklore.

Rəyçi: dos.Şakir Albalıyev